Qeyd edək ki, ümumi təhsil məktəblərinin şagirdləri arasında “Heydər Əliyev və müstəqil Azərbaycan” mövzusunda keçirilmiş müsabiqə Təhsil Nazirliyinin 3 aprel 2012-ci il tarixli, 529 nömrəli əmrinə müvafiq olaraq təşkil edilib. Məktəb, rayon (şəhər) və respublika mərhələsindən ibarət olan rəsm müsabiqəsi 3 yaş qrupu (6-10, 11-14, 15-18 yaş qrupları) üzrə keçirilib. Müsabiqənin Respublika mərhələsinə 200-ə yaxın rəsm işi təqdim edilib. Azərbaycan Rəssamlıq Akademiyasının əməkdaşlarından ibarət münsiflər heyəti tərəfindən aparılan seçim əsasında müsabiqə iştirakçıları arasından 27 nəfər qalib müəyyənləşdirilib.

Tədbiri giriş sözü ilə açan təhsil nazirinin müavini Qulu Novruzov qeyd edib ki, müsabiqənin keçirilməsində məqsəd uşaq və gəncləri ümummilli lider Heydər Əliyevin ideyaları ruhunda tərbiyə etmək və istedadlı gəncləri üzə çıxarmaqdan ibarətdir. Müsabiqəyə təqdim olunmuş rəsmləri yüksək qiymətləndirən Qulu Novruzov bütün bunları şagirdlərin ümummilli liderə sonsuz məhəbbətinin təzahürü kimi səciyyələndirib.

Nazir müavini müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu, ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açıb. Keçirilən rəsm müsabiqəsinin əhəmiyyətinə toxunan Qulu Novruzov qaliblərə yeni-yeni uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Sofiyeva, Milli Məclisin deputatları Kamilə Əliyeva, Fuad Muradov belə tədbirlərin keçirilməsini təqdirəlayiq hal kimi qiymətləndiriblər. Onlar ümummilli liderin ideyalarını rəsm işlərində əks etdirən kiçik rəssamların daha böyük uğurlara imza atacaqlarına ümidvar olduqlarını bildiriblər.

Müsabiqənin respublika mərhələsində I, II və III yerləri tutan şagirdlərə Təhsil Nazirliyinin diplomu və qiymətli hədiyyələr təqdim olunub.